E) Bəzən notasiyaların kombinasiyası sadə alətlərlə müqayisədə layihə üçün daha uyğun olur

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

97. Hansı bənddə göstərilən biznes proseslərin modelləşdirmə notasiyalarına aiddir?

A) Biznes proseslərin müxtəlif, real komponentləri arasında əlaqələri göstərən nişanlar və bağlayıcılar

B) Biznes proseslərin təsdiqləmə növü

C) Biznes proseslərin idarə olunma aləti

D) Əmtəə istehsalını stimullaşdıran vasitə

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

98. Biznes proseslərinin modelləşdirmə notasiyası (BPMN) standartı ilə bağlı verilənlərdən hansı yanlışdır?

A) İş prosesləri və şəbəkə xidmətləri üçün yeni standartdır

B) İlk dəfə 2004-cü ilin may ayında tərtib edilmişdir

C) İlkin məqsədi bütün biznes istifadəçiləri tərəfindən anlaşılan təlimatın hazırlanması olmuşdur

D) Daxili modelin hazırlanması və proqramlaşdırma dillərini birləşdirmək məqsədi daşıyırdı

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

99. Aşağıdakılardan hansı BPMN-in (Biznes proseslərinin modelləşdirmə notasiyası) nəticəsi (output) kimi göstərilə bilər?

A) Biznes proseslərin təsdiqləməsi

B) İş proseslərini təsvir edən biznes prosesləri diaqramı

C) Son istehsal məhsulu

D) Biznes proseslərini təsvir edən proses modeli

E) Biznes proseslərin formal təsviri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

100. Aşağıdakılardan hansı BPMN (Biznes proseslərinin modelləşdirmə notasiyası) üçün doğru deyil?

A) Fərqli istifadəçilərin ehtiyaclarını qarşılamaq üçün ümumilikdə 100-dən çox nişan təsviri və analitik qruplaşdırılmışdır

B) Hadisələrin başlanğıcını, ortasını və sonunu göstərir

C) Fəaliyyət və məlumat axınlarınıəks etdirir

D) Qeyri-dəqiq notasiyadır

E) Biznesdaxili əlaqələri və bizneslərarası əməkdaşlığı ifadə edir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

101. Göstərilənlərdən hansı BPMN-in (Biznes proseslərinin modelləşdirmə notasiyası) üstün cəhəti kimi qeyd oluna bilər?

A) Simvollar toplusundan düzgün istifadə etmək üçün təlim və təcrübənin lazım olması

B) Çoxsaylı proses səviyyələri arasında əlaqələri görmənin çətinliyi

C) Geniş istifadə olunması və başadüşülən olması

D) Müxtəlif modelləşdirmə alətlərinin fərqli notasiya qruplarını dəstəkləyə bilməsi

E) Bəzi təşkilatların biznes icmasındakı üzvlərinin istifadə edə bilməməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

102. Biznes proseslərin iş axınına təsir dərəcisinə görə hadisənin neçə növü var?

A) 3 - Hadisənin başlanğıcı, Aralıq hadisə, Hadisənin sonu

B) 1 - Hadisənin başlanğıcı

C) 2 - Hadisənin başlanğıcı və sonu

D) 4 - Hadisənin başlanğıcı, Hadisənin gedişatı, Hadisənin inkişafı, Hadisənin sonu

E) BPMN-in elementi kimi hadisənin iş axınına təsiri qeyd olunmur

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

103. Hansı bənddə göstərilən "Hadisənin sonu"nun (End Event) xüsusiyyətlərindən deyil?

A) Biznes prosesin hansı nöqtədə bitdiyini ifadə edir

B) Ondan yalnız "Aralıq hadisə" istiqamətdə çıxış olur

C) Proseslərin bir və ya bir neçə “End Event”i ola bilər

D) Biznes prosesdə “Start Event” varsa, ən azı bir “End Event” olmalıdır

E) Kənar xətti qalın xətlə təsvir edilən çevrə ilə ifadə olunur

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

104. BPMN-də (Biznes proseslərinin modelləşdirmə notasiyası) əməliyyatın ləğv edilməsini ifadə etmək üçün aşağıdakılardan hansından istifadə olunur?

A) Məlumatverici hadisə (message events)

B) Xəta hadisəsi (error events)

C) Siqnal hadisəsi (signal events)

D) Ləğvedici hadisə (cancel events)

E) Sonlandırma hadisəsi (terminate events)

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

105. BPMN-də (Biznes proseslərinin modelləşdirmə notasiyası) prosesdə iş qaydalarının inteqrasiyasına imkan verən hadisə hansıdır?

A) Şərti hadisə (conditional events)

B) Məlumatverici hadisə (message events)

C) Xəta hadisəsi (error events)

D) Siqnal hadisəsi (signal events)

E) Sonlandırma hadisəsi (terminate events)

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

106. BPMN-də (Biznes proseslərinin modelləşdirmə notasiyası) biznes prosesin tərkibində baş verən hər hansı bir əməliyyat necə ifadə edilir?

A) Model

B) Hadisə

C) Fəaliyyət

D) Diaqram

E) Əmtəə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

107. BPMN-də (Biznes proseslərinin modelləşdirmə notasiyası) prosesin daxilində olan ən kiçik addım hansıdır?

A) Alt proses

B) Tapşırıq

C) Fəaliyyət

D) Əməlyyat

E) Hadisə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

108. BPMN-də (Biznes proseslərinin modelləşdirmə notasiyası) proses daxilində baş verən birləşmələr və ayrılmalara nəzarət etmək üçün hansı modelləşdirmə elementindən istifadə olunur?

A) Keçidlərdən

B) Hadisələrdən

C) Fəaliyyətlərdən

D) Proseslərdən

E) Tapşırıqlardan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

109. Aşağıdakılardan hansı biznes proseslərinin təhlilinin məqsədlərindən biri ola bilməz?

A) Təşkilatın məqsədlərinə çatması üçün nə qədər səmərəli işlədiyini qiymətləndirmək

B) Təşkilatın biznes fəaliyyətləri barəsində əsaslandırılmış qərarlar qəbul etməsi üçün lazım olan məlumatları formalaşdırmaq

C) İşlərin necə yerinə yetirilməsi barədə ümumi anlayışa sahib olmaq

D) Təşkilatın inkişaf etməsi və dəyişikliklərə uyğunlaşması üçün biznes ehtiyaclarının qarşılanmasını təmin etmək

E) Proses modelini hazırlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

110. Biznes fəaliyyətləri çərçivəsində prosesin təhlili zamanı əsas proseslərə kompleks şəkildə baxış aşağıdakılardan hansı ilə başlayır?

A) Təşkilatın strukturunun müzakirəsi ilə

B) Proses fəaliyyətlərinin yerinə yetrilməsi zamanı istifadə olunan resursların ölçülməsi ilə

C) Daxili və xarici təchizatçılar və istehlakçılarla bağlı məlumatlarla

D) Təşkilatın strategiyasının nəzərdən keçirilməsi ilə

E) Prosesi idarə edən biznes qaydaları ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

111. Göstərilənlərdən hansı biznes prosesin təhlili nəticəsində əldə olunan kontekstual məlumatlar aid deyil?

A) Təşkilatın strategiyasının, hədəflərinin və məqsədlərinin aydın bəyan olunması

B) Biznes mühitinin təsviri

C) Proses modelinin müəyyənləşdirilməsi

D) Prosesin məğzi

E) Prosesə daha geniş, çarpaz funksional proses çərçivəsindən baxılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

112. Aşağıdakılardan hansə biznes prosesinin təhlili sayəsində əldə olunan nəticələrdən biri hesab edilməyə bilər?

A) Rəhbərlikdə təşkilatın fəaliyyəti ilə bağlı fikir formalaşır

B) Prosesə proses sahibi və yuxarı vəzifəli sponsorlar təyin edilir

C) Rəhbərlik dəyişən mühitə necə uyğunlaşacaqlarına dair düşünülmüş qərarlar verə bilir

D) Qarşıya qoyulmuş biznes hədəflərinə nail olmaq üçün rəhbərlik proses strukturlarını optimallaşdıra bilir

E) Təşkilatın fəaliyyətində mövcud olan çatışmazlıqlar müəyyənləşdirilə bilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

113. Prosesin təhlili nə vaxt aparılmalıdır?

A) Proseslərin davamlı monitorinqindən alınan siqnallara cavab olaraq

B) Müəssisə rəhbərinin müvafiq əmri əsasında

C) Proses modelinin müəyyənləşdirilməsi ərəfəsində

D) İşçilərin tələbinə əsasən

E) Biznes proseslərinin təhlili praktikası mövcud deyil

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

114. Təşkilatın proseslərində baş verən hadisələr prosesin təhlillərinin aparılmasının ən əsas səbəblərindən hesab olunur. Aşağıdakılardan hansı bu səbəblərdən biri hesab edilmir?

A) Strateji planlarını yenilənməsi

B) İcra ilə bağlı problemlərin problemlər meydana çıxması

C) Yeni texnologiyalar

D) Prosesin simulyasiyası

E) Bizneslərin birləşməsi, satınalınması və ya ayrılma

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

115. Biznes prosesin təhlilinin nəticəsi nəyə əsaslanmalıdır?

A) Müəssisə rəhbərinin tapşırıqlarına

B) Ümumi razılığa

C) Proses iştirakçılarının ümumi fikrinə

D) Təçkilatın əldə etdiyi gəlirə

E) Əldə olunmuş məlumatlardan çıxarılan faktlara

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

116. Prosesin xarakterinə və icrasına (fəaliyyətinə) təsir edən məhdudiyyətlər və qəbul edilən qərarlar ümumilikdə necə adlanır?

A) Biznes qaydaları

B) Xidmətin ötürülmə nöqtələri

C) Təşkilatı mədəniyyət Konteksti

D) Strategiya

E) Prosesə təsir edən amillər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

117. Aşağıdakılardan hansı biznes prosesin güclü və zəif tərəflərini müəyyən etməyə imkan verən və geniş istifadə edilən üsullardan biridir?

A) Araşdırma

B) Kritik uğur amilləri

C) GZİT

D) Bençmarkinq

E) Porterin Beş Gücü

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

118. Prosesin təhlilində bençmarkinq hansı mərhələdə icra edilir?

A) Təşkilati struktur təsdiq edildikdən sonra

B) Mövcud vəziyyət təhlilinin başa çatdırılmasından sonra

C) Prosesin əvvəlində

D) Yeni texnologiyalar tətbiq edildikdə

E) Makro analiz tələb edildikdə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

119. 1. Cari fəaliyyət barədə fikir yürütməyə imkan verir;
2. Orta səviyyəli fəaliyyətin necə olması ilə bağlı təsəvvür formalaşdırır;
3. Proses sahibinə biznes proses fəaliyyəti üçün standartlar yaratmağa imkan verir;
4. Mövcud vəziyyət təhlilinin başa çatdırılmasından sonra icra edilir.
Yuxarıda qeyd edilənlər hansı təhlil üsuluna aid xüsusiyyətlərdir?

A) Araşdırma

B) Kritik uğur amilləri

C) GZİT

D) Bençmarkinq

E) Porterin Beş Gücü

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

120. Aşağıdakılardan hansı biznes proseslərin təhlili zamanı məlumat axınının təhlili üçün deyilə bilməz?

A) Məlumatların sistem boyunca necə hərəkət etdiyini göstərmək üçün tətbiq olunan bir üsuldur

B) Əsas məqsədi prosesdəki fəaliyyətlərin proses boyunca bu məlumatla necə əlaqələndiyini anlamaqdır

C) Proses komandasına çətinlikləri, lazımsız növbələri və ya yığılmaları, əlavə dəyər qatmayan təsirləri aşkara çıxarmağa kömək edir

D) Tətbiq edilməsi zəruri olan və ya olmayan biznes qaydaları aşkar etməyə kömək edir

E) Xüsusən nizamlı proses sənədləşməsinə və dəyişikliklərin idarə edilməsinə nail olmayan təşkilatlar üçün keçərlidir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

121. Qeyd olunan fikirlərdən hansı biznes proseslərində xərclərin təhlili ilə uyğunluq təşkil etmir?

A) Dəyişikliyin prosesə təsirini ölçmək üçün istifadə olunur

B) Ümumilikdə prosesə çəkilən xərci göstərir

C) Məhsul və xidmətlə bağlı həqiqi xərcləri aşkarlamaq üçün istifadə edilir

D) Adətən digər təhlil növləri ilə birgə aparılır

E) Əsas diqqət xərc və digər atributların hər fəaliyyət səviyyəsində müəyyən edilməsinə yönləndirilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

122. Aşağıdakılardan hansı biznes proseslərin təhlilində hadisələrin mənşəyini müəyyən edən sistematik metod və onlara cavab verən yanaşma hesab edilir?

A) Xərclərin təhlili

B) GZİT

C) Səbəb təhlili

D) Həssaslıq təhlili

E) Gəlirlilik təhlili

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

123. Səmərəli idarəetmə problemlər meydana çıxdıqdan sonra onları həll etməməli, əksinə, onların meydana çıxmasının qarşısını almalıdır. Bu fikrin açıqladığı metod hansı bənddə göstərilmişdir?

A) Səbəb təhlili

B) Gəlirlilik metodu

C) Böhranların idarəedilməsi

D) Biznes proseslərə nəzarət

E) Audit

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

124. Biznes proseslərin təhlili zamanı ortaya çıxan problemən səbəbini aydınlaşdırmaq üçün "Niyə?" sualı hansı mərhələyədək verilə bilər?

A) Hər problem üçün bir sual qoyulmalıdır

B) Problem həll olunanadək

C) Problemlərin həlli istiqamətində səbəblərdən daha çox verdiyi nəticələr əhəmiyyət daşıdığı üçün əsas diqqət nəticələrin aradan qaldırılmasına yönəldilməlidir

D) Proses başa çatanadək

E) Problemin kökündə dayanan əsl səbəb tapılana qədər

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

125. Aşağıdakılardan hansı səbəb təhlilində istifadə olunan ümumi metodlardan biri hesab edilmir?

A) 5 “Niyə?” təhlili

B) Zaman təhlili

C) Xəta növləri və təsirləri təhlili

D) Fişbon və ya İşıkava diaqramı

E) Pareto təhlili

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

126. Biznes proseslərinin təhlilində prosesə nə qədər vaxt sərf olunduğunu ölçmək üçün hansı metoddan istifadə edilir?

A) Səbəb təhlili

B) Həssaslıq təhlili

C) Gəlirlilik metodu

D) Zaman sikli təhlili

E) Səmərəlilik metodu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

127. Biznes proseslərində zaman sikli təhlili hansı məqsədi daşıyır?

A) Prosesə sərf olunan zamanın mali qarşılığını hesablanması

B) İnvestorların istehsala sərf edəcəkləri ehtimal olunan vaxtın müəyyənləşdirilməsi

C) Prosesə sərf olunan vaxta qənaət edilməsi

D) Prosesin ehtimal olunan maksimum icra müddətinin öyrənilməsi

E) Heç biri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

128. Göstərilənlərdən hansı parametrlərinə edilmiş dəyişikliklərin öhdəsindən necə gəldiyini ölçür?

A) Proseslərin reaksiya qabiliyyəti

B) Böhran vəziyyətlərində idarəetmə

C) Proseslərin idarə olunması

D) Gəlir və xərclərin təhlili

E) Təşkilatın istehsal potansialı

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

129. Təşkilata mənfi təsir edə biləcək addımların və hadisələrin müəyyən edilməsi üçün hansı metoddan istifadə edilir?

A) Səmərəlilik metodu

B) Böhran vəziyyətlərində idarəetmə metodu

C) Proseslərin reaksiya qabiliyyəti

D) 5 “Niyə?” təhlili

E) Risklərin Təhlili

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

130. Aşağıdakılardan hansı risk təhlilinin məqsədi hesab edilə bilər?

A) Arzu olunmayan hadisələrin təşkilat üçün nə ilə nəticələcəyini nəzərdən keçirmək

B) İstehsal prosesində vaxta qənaət etmək

C) Mənfi hadisələrin təşkilata vuracağı zərərlərin aradan qaldırılması

D) Xidmətlərin daha az maliyyətlə əldə olunmasına nail olmaq

E) Keyfiyyətli idarəetməni təmin etmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

131. Aşağıdakılardan hansı biznes proseslərinin təhlilinin ən son addımını təşkil edir?

A) Biznes prosesin qiymətləndirilməsi

B) Təhlilin sənədləşdirilməsi

C) Təkrar prosesin başladılması

D) Təşkilatın qoyulan hədəflərə çatmış olması

E) Prosesin ümumi təhlili

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

132. Hansı bənddə verilmiş fikir təşkilatın biznes proseslərinin proses yetkinlik xətti üzərində təxmini yerləşdirilməsinin öyrənilməsi və izlənməsi üçün əhəmiyyətli hesab edilən faktorlardan biri kimi qiymətləndirilməyə bilər?

A) Xətt üzərində proseslərin harada qiymətləndirildiyini göstərir

B) Proses sahibliyinin, proses idarəsinin və prosesin gündəlik icrası üçün zəruri olan bacarıqların dərəcəsini göstərir

C) Biznes dəyişikliklərinin çətinliliyini (şiddətini) və proses dizayn mərhələsi üçün tövsiyə olunan yanaşmanı göstərir

D) Prosesə daha çox investisiya qoyulmasının zəruri olduğu nöqtəni göstərir

E) Təşkilatın intelektual avtomatlaşdırma və biznes proseslərə nəzarət məqsədi ilə mümkün texnologiya platformalarına çıxışını təmin edir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

133. Prosesin qurulması dedikdə aşağıdakılardan hansı başa düşülür?

A) Müştərilər üçün faydalı olan, əsas çarpaz funksional proseslərin formalaşdırılması və ya optimallaşdırılması

B) İstehsalat xəttinin qurulması

C) Xidmət və ya məhsulların istehlakçıya faydalı olması nəzərə alınaraq qiymətlərinin azaldılması

D) Təşkilatın strukturunun tam formalaşdırılması

E) Yeni istehsal müəssisəsinin qurulması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

134. Aşağıdakılardan hansı biznes prosesin dizaynı zamanı formalaşdırılan xarakteristik xüsusiyyətlərdən biri deyil?

A) Biznes hədəfləri

B) Prosesin icrasının qarşıya qoyduğu məqsədlər

C) Təşkilatın səhmdarlarının müəyyənləşdirilməsi

D) Maliyyə və əməliyyat nəzarəti

E) Texnoloji platformalar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

135. Biznes proseslərin dizaynında hər bir vəzifənin məşğulluq səviyyəsi nədən asılıdır?

A) Prosesin müddətindən

B) İcraçı rəhbərin istəyindən

C) Təşkilatın maliyyə vəziyyətindən

D) İstehsal proseslərinin avtomatlaşdırılma səviyyəsindən

E) Prosesin əhatə dairəsindən və dəyişiklik dərəcəsindən

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

136. Hansı hallarda "yuxarıdan-aşağıya" doğru yanaşma tətbiq edilməlidir?

A) İstənilən proseslə bağlı dəyişikliklər olduqda

B) Müəssisəyə təsir edən əsaslı proses dəyişiklikləri olduqda

C) Biznes proseslərinin idarə olunmasında hər zaman "yuxarıdan-aşağıya" doğru yanaşma tətbiq edilməlidir

D) Hər hansı funksiyaya aid dəyişikliklər olduqda

E) Biznes proseslərinin idarə olunmasında hər zaman "aşağıdan-yuxarıya" doğru yanaşma tətbiq edilməlidir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

137. Biznes prosesinin dizaynında proses rəhbəri "aşağıdan-yuxarıya" yanaşması ilə daha çox vaxt itirməmək üçün bir sıra tədbirlər görə, zaman və əlavə resurs sərfinin qarşısını ala bilər. Aşağıdakılardan hansı bu tədbirlərdən biri deyil?

A) Digər şöbələrlə məsləhətləşməlidir

B) Eyni biznes təkmilləşdirmə layihəsinin bugünə qədər icra olunub-olunmadığını dəqiqləşdirməlidir

C) Əvvəli proseslərdən öyrənilmiş dərslər yeni layihə üçün nəzərə alınmalıdır

D) Prosesi sınaqdan keçirməlidir

E) Daha öncə tətbiq olunmuş yanaşmalara yeni layihə üçün diqqət yetirilməlidir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

138. Prosesin dizaynı mərhələsində yuxarı rəhbərliyin vəzifəsi nədən ibarətdir?

A) Prosesin ayrı-ayrı funksiyalarına aid fəaliyyətləri yerinə yetirmək

B) Əvvəlki proseslərdə tətbiq olunmuş yanaşmaların yeni prosesdə tətbiqini təmin etmək

C) Dizayn olunmuş prosesin təşkilatın ehtiyaclarına uyğun olub-olmadığını müəyyən etməkdən

D) Müştərilərə prosesi sınaqdan keçirmək

E) Heç biri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

139. Biznes proseslərində dizayn dəyişiklikləri hansı mərhələdə yuxarı rəhbərlik tərəfindən təsdiq edilməli və dəstəkləməlidir?

A) Tətbiq edilməmişdən əvvəl

B) Proses başa çatdıqdan sonra

C) Prosesə yeni mütəxəssislərin cəlb edilməsinə zərurət olduqda

D) Prosesin sınaqları zamanı

E) Dizayn dəyişikliklərinin yuxarı rəhbərlik tərəfindən təsdiq edilməsi tələb olunmur

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

140. Prosesin dizayn işi fərdi proses ekspertinə həvalə olunubsa, nəticənin aşağıdakılardan hansı ilə mütləq şəkildə razılaşdırmasına ehtiyac duyulmur?

A) Tərəfdaşlarla

B) Rəqib təşkilatlarla

C) İştirakçılarla

D) Müştərilərlə

E) Prosesə təsiri olan şəxslərlə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

141. Biznes proseslərinin Iştirakçıları və tərəfdaşları ilə bağlı verilmiş fikirlərdən hansı yanlışdır?

A) Prosesdə iştirak edən hər kəs proses iştirakçısı hesab edilir

B) Proses iştirakçıları yeni prosesi təşkil edən faəliyyətlərin sərhədlərini formalaşdırırlar

C) Tərəfdaşlar adətən yeni prosesin icrası zamanı öz maraqlarını qorumaq üçün proses sahibi ilə yaxından işləyirlər

D) Prosesdə hər hansı fəaliyyətə təsir edən şəxslər proses iştirakçısıdır

E) Yalnız proses memarının müəyyən etdiyi şəxslər prosesin iştirakçıları ola bilərlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

142. Əgər proses sahibi proses dizaynını bilavasitə idarə etmirsə, bir qayda olaraq prosesə nəzarət etməsi üçün aşağıdakılardan hansını təyin edir?

A) Proses analitiki

B) Layihə memarı

C) Auditor

D) Layihə rəhbəri

E) Yuxarı vəzifəli sponsor

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

143. Hər hansı biznes proses dizayna başlamazdan öncə proses komandası nələri incələməlidir?

A) İstehsal prosesini

B) Təhlil mərhələsindən çıxarılan nəticələri

C) İş şəraitini

D) Komanda üzvlərinin peşəkarlığını

E) Proses sahibinin prosesə münasibətini

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

144. 1. Mövcud vəziyyətin təhlili sənədi;
2. Dizaynın aydın təsviri;
3. Qarşıya çıxacaq çətinliklərin siyahısı;
4. Prosesdən gözlənilən nəticələrin siyahısı;
5. Komanda üzvlərinin siyahısı.
Yuxarıdakılardan hansılar biznes prosesin dizaynına başlayarkən tərtib olunan təhlil nəticələrini formalaşdırır?

A) 1, 2, 3

B) 2, 4, 5

C) 1, 3, 5

D) 3, 4, 5

E) 2, 3, 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

145. Prosesin imitasiyası ilə bağlı verilənlərdən hansı doğru deyildir?

A) İnsanlara müvafiq rollar (vəzifələr) verilə bilər

B) Sınaq məqsədi ilə şərti məlumatlar göndərilə bilər

C) Şərti məlumatların mümkün qədər həqiqətə yaxın olması daha faydalıdır

D) Rollar bölüşdürüldükdən sonra, yeni proses yerinə yetirilərkən hər kəs ona verilən rolu icra etməlidir

E) Rollar verilmiş şəxslər komanda üzvlərindən seçilməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

146. Göstərilənlərdən hansı prosesin imitasiya, təlim və simulyasiyasının üstünlüklərini ifadə edən xüsusiyyətlərdən biri deyil?

A) heç bir risk təşkil etmir

B) Heç bir mənfi əlavə təsiri olmadan yeni prosesin nöqsanları aşkara çıxarılır

C) Prosesin miqyasını artırmaqla prosesin zəif tərəflərini müəyyənləşdirmək olar

D) Simulyasiyalar real istehsalat avadanlıqlarından istifadə etməklə icra olunur

E) Yeni dizaynın nə qədər etibarlı olduğunu insanlara nümayiş etdirmək mümkündür

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

147. Yeni proses dizaynının reallıqda, niqyası məhdudlaşdırılaraq istifadəyə verilməsi prosesi necə adlanır?

A) Prosesin imitasiyası

B) Təlim

C) Pilot layihə

D) Simulyasiya

E) Yeni proses dizaynı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

148. Pilot layihələr əsas etibarilə hansı müddətdə tətbiq edilir?

A) Ən çox 1 ay müddətində

B) 3 ay

C) 6 aylıq periodda

D) 1-2 il ərzində

E) 1 istehsal siklində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

149. Aşağıdakılardan hansı pilot layihələrin imitasiya, təlim və simulyasiya ilə müqayisədə zəif tərəfi kimi qiymətləndirilə bilər?

A) Nisbətən riskli olması

B) Proseslərə yaxından nəzarət olunur

C) Dəyişikliyə şübhə ilə yanaşan əməkdaşlar və ya proses sahibləri üçün yaxşı fürsətdir

D) Proses zamanı problem meydana gəldiyi təqdirdə, dərhal həll edilir

E) Təşkilatın digər üzvləri proseslə tanış olanda pilot prosesə cəlb olunan şəxslər artıq super-təlimçi ola bilərlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

150. Aşağıdakılardan hansı prosesin autsorsinqi zamanı nəzərə alınmalı olan riskl faktorlarından biri deyil?

A) Əqli mülkiyyət hüquqlarının qorunması

B) Daha çox dəyər yaradan digər strateji proseslərə diqqətin artırılması

C) Kənar təşkilata aid keyfiyyət

D) Mövcud işçilərin iş yerlərini itirməsi

E) Cəlb edilmiş təşkilatın fəaliyyətinə nəzarət

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

151. 1.Biznes proses səviyyəsi;
2.Tapşırıqlar və mümkün ssenarilər;
3.Ana proseslər;
4.Dəyər zənciri axını;
5.Alt proseslər;
6.İş axış diaqramları.
Yuxarıda verilən proses iyerarxiyası nümunəsində detallaşma səviyyələrinin doğru ardıcıllığı hansı bənddə göstərilmişdir?

A) 1, 2, 3, 4, 5, 6

B) 4, 1, 3, 5, 6, 2

C) 1, 2, 3, 5, 6, 4

D) 3, 5, 4, 2, 6, 1

E) 1, 3, 5, 2, 4, 6

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

152. Proses iyerarxiyasında işi biznes funksiyalarına ayırıb, daha sonra isə biznes funksiyalarını biznes vahidlərinə uyğunlaşdıran səviyyə necə adlanır?

A) Biznes Proseslər

B) Ana proseslər

C) İş prosesləri

D) Mümkün ssenarilər

E) Tapşırıqlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

153. Aşağıda verilən fikirlərdən hansı biznes qaydaları üçün deyilə bilməz?

A) Hər hansı bir fəaliyyətin necə və nə vaxt icra olunacağını müəyyən edir

B) Fəaliyyət axınını idarə etməyə kömək edir

C) Anlaşılmazlığı aradan qaldırmaq və nəzarəti gücləndirmək üçün müəyyənləşdirilir

D) Fəaliyyətlər müəyyən olunmazdan əvvəl biznes qaydaları təsdiqlənir

E) Biznes qaydalarının mürəkkəbliyi prosesin mürəkkəbliyinə səbəb olur

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

154. Bines proseslərində işin başlanğıcından nəticə əldə olunana qədər olan müddət necə adlanır?

A) İş vaxtı

B) İşin ləngimə müddəti

C) Gözləmə müddəti

D) Növbədənkənar vaxt

E) Təcili proses müddəti

Testin çətinlik dərəcəsi: orta

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

155. Uğurlu dizayn mərhələsi üçün bir neçə mühüm amil vardır. Aşağıdakılardan hansı bu amillərə nümunə təşkil etmir?

A) Yuxarı rəhbərlik səviyyəsində liderlik

B) Təşviqat və mükafatlandırma

C) İstehsalatın stimullaşdırılması

D) Çarpaz-funksional komanda

E) Strategiya ilə uyğunluq

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznes proseslərinin idarə edilməsinə dair metodika. Practical Solutions Group-MS. Bakı,2021

156. Aşağıdakılardan hansı SOCAR-da məmnunluq sorğusunun keçirilməsinin məqsədlərindən biri deyil?

A) Əmək məhsuldarlığının artırılması

B) Sosial proseslərin idarəedilməsinin optimallaşdırılması

C) Məmnunluq dərəcəsinin artırılması

D) İstehsalın səmərəliliyinin yüksəldilməsi

E) İşçilərin say tərkibinin optimallaşdırılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

157. Praktik tətbiq üçün öyrənilən fenomen barədə etibarlı məlumat əldə etmək məqsədilə əlaqəli, məntiqi, ardıcıl metodoloji, metodiki, təşkilati və texniki prosedurlar sistemi necə adlanır?

A) Sosioloji sorğu

B) Müsahibə

C) Ümumi statistik məlumatlar

D) Sosioloji tədqiqat

E) Məmnunluq dərəcəsinin qiymətləndirilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

158. "SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası"nda "Baş toplu" dedikdə aşağıdakıalrdan hansı nəzərdə tutulur?

A) Proseslər toplusu

B) İşçilərin ümümi sayı

C) Metodikanın hazırlanmasında istifadə edilən ədəbiyyat toplusu

D) Aparılan sorğuların cəmi

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

159. Sosial hadisə ilə bağlı fikirləri aşkara çıxarmaq üçün respondentə sual verməklə sosioloji məlumat toplamaq metodu necə adlanır?

A) Sosioloji sorğu

B) Müsahibə

C) Anketləşdirmə

D) Seçmə metodu

E) Məmnunluq dərəcəsinin müəyyənləşdirilməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

160. Tədqiqatçının sorğu anketindən istifadə edərək respondentlə əlaqə qurmasına əsaslanan sosioloji məlumat toplamaq metodu hansıdır?

A) Sosioloji sorğu

B) Müsahibə

C) Anketləşdirmə

D) Seçmə metodu

E) Məmnunluq dərəcəsinin müəyyənləşdirilməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

161. Aşağıdakılardan hansı sosioloji məlumat toplamaq metodlarından biri deyildir?

A) Sosioloji sorğu

B) Müsahibə

C) Anketləşdirmə

D) Məmnunluq dərəcəsinin qiymətləndirilməsi

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

162. Aşağıdakılardan hansı işçilərin əmək şərtləri və şəraitindən məmnunluğunun müəyyənləşdirilməsi üçün istifadə edilən əsas sosioloji kateqoriyalardan biri hesab edilir?

A) Anonimlik

B) Reprezentativlik

C) Etibarlılıq

D) Nümayəndəlilik

E) Məmnunluq dərəcəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

163. Ölçülən kəmiyyətin nəticələrinin onun riyazi gözləməsindən kənarlaşma dərəcəsi necə adlanır?

A) Standart xəta

B) Hesablama yanlışlığı

C) Ölçmənin səhvliyi

D) Hədəfdən yayınma

E) Riyazi məntiqə uyğunsuzluq

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

164. Aşağıdakılardan hansı sorğu aparılan müəssisələrdə məmnunluq dərəcəsinin nəticələrinin təhlili üzrə Komissiyaların səlahiyyətlərinə aid fəaliyyətlərdən biri deyil?

A) Sosioloji tədqiqatın nəticələrinin təhlili

B) Sorğuda iştirak etmiş respondentlərin müəyyənləşdirilməsi

C) Neqativ nəticələrin səbəblərinin araşdırılması

D) Tədbirlər planının hazırlanması

E) Tədbirlər planının icrasına nəzarət

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

165. Sual blokları üzrə orta məmnunluq dərəcəsi necə hesablanır?

A) Hər hansı bir blokda olan suallar üzrə müəyyənləşdirilmiş məmnunluq dərəcələrini ifadə edən ədədlərin cəminin sualların sayına bölünməsi yolu ilə

B) Suallar üzrə ifadə edilmiş məmnunluq dərəcələrini göstərən ədədlərini hasilinin sualların sayına nisbəti ilə

C) Suallar üzrə müəyyənləşdirilmiş məmnunluq dərəcələrini ifadə edən ədədlərin cəminin respondentlərin sayına nisbəti ilə

D) Respondentlərin sayının məmnunluq dərəcələrini ifadə etdikləri ədədlərə hasili ilə

E) Hər hansı bir blokda olan suallar üzrə müəyyənləşdirilmiş məmnunluq dərəcələrini ifadə edən ədədlərin cəminin sualların sayına bölünməsindən əldə edilən nəticənin respondentlərin sayına vurulmaqla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

166. Bütövlükdə anketdə olan cəmi suallar üzrə orta məmnunluq dərəcələrini ifadə edən ədədlərin cəminin sualların sayına bölünməsi yolu ilə aşağıdakılardan hansı hesablanır?

A) Müəssisə üzrə orta məmnunluq dərəcəsi

B) Fərdi məmnunluq qiyməti

C) Sual blokları üzrə orta məmnunluq dərəcəsi

D) Sorğunun səmərəlilik ölçüsü

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

167. SOCAR-da məmnunluq dərəcəsi üzrə sosioloji tədqiqat hansı perioda keçirilir?

A) Hər rübün sonunda

B) İldə bir dəfə

C) İldə iki dəfə

D) Müəssisə rəhbərinin istəyinə uyğun, ancaq ildə dörd dəfədən çox olmayaraq

E) Hər ay

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

168. 1. Sorğunun keçirilməsi üzrə müvafiq parametrlərin müəyyənləşdirilməsi və razılaşdırılması; 2. Sorğunun planlaşdırılması; 3. Forma və blankların hazırlanması; 4. İşçi heyətinin hazır vəziyyətə gətirilməsi. Qeyd edilən özəlliklər sosioloji tədqiqatın hansı mərhələsində nəzərdə tutulur?

A) Hazırlıq

B) İcra

C) Təşkiletmə

D) Təhlil

E) Tətbiq

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

169. Qeyd olunanlardan hansı sosioloji tədqiqata hazırlıq mərhələsində yerinə yetirilən proseslərdən biri deyildir?

A) Tədqiqatın müddətinin təyin edilməsi

B) Cəlb olunacaq respondentlərin sayının müəyyənləşdirilməsi

C) İcra planının hazırlanması

D) Anketlərinin nəticələrinin ilkin təhlilinin aparılması

E) Sifarişçi qurum tərəfindən sosioloji tədqiqat üzrə xəta payı və əminlik səviyyəsinin MDQSF-də qeyd edilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

170. Aşağıdakılardan hansı icraçı qurum tərəfindən Məmnunluq dərəcəsinin qiymətləndirilməsi üzrə sifariş formasına (MDQSF) əsasən sosioloji tədqiqatın aparılması üçün təmin edilən hazırlıq prosedurlarından biri hesab eilmir?

A) İcra qrafikinin hazırlanması

B) Lazımi sayda anketlərin icraya başlamazdan 1 ay əvvəl sifariş verilməsi

C) Respondentlərin sorğuda iştirakının təmini

D) İşçi heyət və digər resursların hazırlığı

E) Tədqiqatın aparılması üzrə müddətlərin tərtib edilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

171. Sosioloji tədqiqatın hansı mərhələsində İcraçı qurum müəssisələrin Təşkiletməyə məsul struktur bölməsindən (TMSB) keçmiş ilin sosioloji tədqiqatının nəticələri üzrə görülən tədbirlərin icra nəticələri barədə qısa çıxarışı əldə edərək sorğu anketlərinə əlavə edir?

A) Hazırlıq

B) İcra

C) Təşkiletmə

D) Təhlil

E) Tətbiq

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

172. Sosioloji tədqiqatın icra mərhələsi İcraçı qurum tərəfindən hansı müddətlərdə yerinə yetrilir?

A) 1 (bir) ay müddətində

B) 1 (bir) iş günü ərzində

C) Tədqiqat rəhbərinin təyin etdiyi müddətdə

D) İstehsalat prosesini pozmadan, lakin 5 (beş) iş günündən çox olmamaqla

E) Tədqiqatın icra qrafikində əks olunan müddətlərdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

173. Sosioloji tədqiqatın icra mərhələsində İcraçı qurum müəssisələrin Təşkiletməyə məsul struktur bölməsi (TMSB) ilə birgə sorğu keçirilən müəssisədə təqdimat keçirir. Təqdimatda aşağıdakılardan hansı ilə bağlı məlumatların respondetlərə bildirilməsinə ehtiyac duyulmur?

A) Sorğunun məqsədi

B) Keçmiş illərin sorğusunun nəticələri

C) Nəticələrin təhlili və hesablanması metodikası

D) Əldə edilən nəticələr

E) Sorğu anketinin məzmunu

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

174. 1. Sahə və şöbələrə gediş ardıcıllığının müəyyən olunması;
2. Anket məlumatlarının elektron bazaya yığılması üçün xüsusi matrisin hazırlanması;
3.Giriş icazələrinin alınması; 4. Respondentlərin sorğuya cəlb olunması;
5.Görülən tədbirlərin icra nəticələri barədə hesabatdan çıxarışın təqdim edililməsi;
6. Daxili rabitə və nəqliyyatın təmin edilməsi.
Göstərilənlərdən hansı sorğu keçriləcək idarə və müəssisələrdə sosioloji tədqiqat prosesinə başlamaq üçün həmin müəssisədə Təşkiletməyə məsul struktur bölmə tərəfindən görülməsi lazımi tədbirlərdəndir?

A) 1, 2, 3, 4

B) 3, 4, 5, 6

C) 2, 4, 5, 6

D) 1, 3, 4, 6

E) 2, 3, 4, 5

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

175. 1. Anket məlumatlarının elektron bazaya yığılması üçün xüsusi matris hazırlanır;
2. Bazaya daxil edilən sorğu anketlərinin nəticələrinin ilkin təhlili çıxarılır;
3. Sosioloji tədqiqat nəticələrinin hesablanması üzrə xüsusi proqram təminatı vasitəsilə analiz edilir.
Yuxarıda qeyd edilənlər sosioloji tədqiqat prosesinin hansı mərhələsində yerinə yetirilir?

A) Hazırlıq

B) İcra

C) Təşkiletmə

D) Təhlil

E) Tətbiq

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

176. Anket məlumatlarının elektron bazaya yığılması üçün xüsusi matris kim tərəfindən hazırlanır?

A) Təşkiletməyə məsul struktur bölmə

B) İcraçı qurum

C) Sorğu keçirilən müəssisənin informasiya texnologiyaları bölmələri

D) Məmnunluq dərəcəsinin nəticələrinin təhlili Komissiyası

E) Müəssisələrin rəhbərləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

177. Aşağıdakılardan hansı sosioloji tədqiqatın təhlili mərhələsində İcraçı qurum tərəfindən yerinə yetirilən tədbirlərdən deyil?

A) Anket sualları üzrə nəticələr hesablanır

B) Diaqramlar və histoqramlar tərtib edilir

C) Sorğu anketinin şablonu müvafiq elektron portalda yığılır

D) Hər bir müəssisə üzrə ayrılıqda hazırlanan hesabat müəssisələrə təqdim edilir

E) Müqayisə cədvəlləri tərtib edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

178. Müəssisələrdə aparılan sosioloji tədqiqatın nəticələrini təhlil etmək üçün nə yaradılır?

A) Məmnunluq dərəcəsinin nəticələrinin təhlili üzrə Komissiya

B) Təşkiletməyə məsul struktur bölmə

C) İcraçı qurum

D) Sorğu keçirilən müəssisənin informasiya texnologiyaları bölmələri

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

179. Məmnunluq dərəcəsinin nəticələrinin təhlili üzrə müəssisələrdə qurulan Komissiya aşağıdakılardan hansına cavabdehlik daşımır?

A) Problemli sahələrin aşkar edilməsi

B) Tədbirlər planının hazırlanması

C) İcra səviyyəsinin izlənilməsi və nəzarət

D) Müvafiq hesabatın hazırlanaraq müəssisə rəhbəri və SOCAR rəhbərliyinə təqdim edilməsi

E) Anket məlumatlarının elektron bazaya yığılması üçün xüsusi matrisin hazırlanması

Testin çətinlik dərəcəsi: orta

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

180. Müəssisələrdə Məmnunluq dərəcəsinin nəticələrinin təhlili üzrə Komisiyanın hazırladığı hesabatdan qısa çıxarışı İcraçı quruma kim təqdim edir?

A) Təşkiletməyə məsul struktur bölmə

B) İcraçı qurum

C) Sorğu keçirilən müəssisənin informasiya texnologiyaları bölmələri

D) Məmnunluq dərəcəsinin nəticələrinin təhlili Komissiyası

E) Müəssisələrin rəhbərləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: SOCAR-da İşçilərin Məmnunluq Dərəcəsinin Qiymətləndirilməsi üzrə Sosioloji Tədqiqatın Metodikası, SOCAR Əmək şəraiti normalarının işlənməsi İdarəsi, Bakı, 2020

181. Hansı bənddə göstərilən sənaye müəssisələrində əməyin təşkilinin əsas vəzifələrindən biri hesab edilmir?

A) İşçilərə əmək məhsuldarlığını müntəzəm surətdə yüksəltmək üçün əlverişli iş şəraitini yaratmaq

B) İşçilərin təlim ehtiyaclarını müəyyənləşdirmək

C) İstehsalın texnikasının, texnologiyasının və təşkilinin daim təkmilləşdirilməsi əsasında yaxşılaşdırmaq

D) İstehsalatda ciddi texnoloji və əmək intizamını yaratmaq

E) İşçilərin əmək şəraitini yüngülləşdirmək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "İstehsalın təşkili" fənni üzrə mühazirə mətnləri. Bakı, 2017

182. Əməyin təşkili ilə bağlı verilmiş fikirlərdən hansı doğru deyil?

A) Əmək kollektivinin birgə fəaliyyətinə əsaslanan istehsal prosesi əməyin müəyyən qaydada təşkil olunmasını zəruri edir

B) Əməyin təşkili istehsalın texniki-iqtisadi şəraiti ilə üzvi surətdə bağlıdır

C) İstehsalın texnikası və texnologiyası inkişaf etdikcə əməyin təşkili prosesi də təkmilləşir

D) Əməyin təşkili prosesinin inkişafı əmək kollektivinin maddi-texniki səviyyəsi ilə tərs mütənasibdir

E) Əməyin təşkilinin əsas məqsədi işçilər üçün ən əlverişli iş şəraitini formalaşdırmaqdan ibarətdir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "İstehsalın təşkili" fənni üzrə mühazirə mətnləri. Bakı, 2017

183. Aşağıdakılardan hansı texnoloji intizamı anlayışını izah edir?

A) İşə vaxtında gəlmək

B) Müəyyən edilmiş iş günü uzunluğunun gözlənilmə-si

C) Məhsulun hazırlanması texnologiyasının tələblərinə ciddi və dəqiq əməl olunması

D) İş vaxtından səmərəli istifadə

E) Müdiriyyətin sərəncamlarının dəqiq icrası

Testin çətinlik dərəcəsi: orta

İstinad: "İstehsalın təşkili" fənni üzrə mühazirə mətnləri. Bakı, 2017

184. İstehsalat müəssisələrində əməyin elmi təşkili aşağıdakılardan hansını hədəf olaraq seçmir?

A) Texnika və insanı vahid istehsal prosesində ən səmərəli surətdə birləşdirmək

B) Yetkinlik dövrünə çatmış istehsalın dəyişdirilərək fərqli məhsul istehsalına keçişi təmin etmək

C) Maddi və əmək ehtiyatlarından qənaətcil istifadə edilməsini təmin etmək

D) İnsanların sağlamlığının mühafizə edilməsini təmin etmək

E) Əmək məhsuldarlığının daim yüksəldilməsini təmin etmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: "İstehsalın təşkili" fənni üzrə mühazirə mətnləri. Bakı, 2017

185. Müəyyən texniki-təşkilatı şərait daxilində istehsalat qabaqcıllarının iş təcrübəsini və bütün istehsal vasitələrindən daha səmərəli istifadə etməklə iş vahidi üzrə əmək normalarının müəyyənləşdirilməsi necə adlanır?

A) İstehsalın artırılması

B) Təşkilatı stukurun formalaşdırılması

C) İstehsalat təcrübəsindən faydalanma

D) Əməyin normalaşdırılması

E) Heç biri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "İstehsalın təşkili" fənni üzrə mühazirə mətnləri. Bakı, 2017

186. Əməyin normalaşdırılması ilə bağlı verilmiş fikirlərdən hansı doğru hesab eilmir?

A) Konkret şərait daxilində əmək bölgüsü və əmək konsepsiyasının səmərəliliyi, iş yerinin təşkili, əmək fəndlərinin təkmilləşdirilməsi və s. bu kimi məsələlər
texniki normalaşdırma ilə sıx bağlıdır

B) Mütərəqqi əmək fəndlərinin tətbiqi nəticəsində əməyin texniki normalaşdırılmasına əsaslanmadan da gözlənilən səmərə tam şəkildə əldə ediləcəkdir

C) Ən səmərəli əmək şəraitini həyata keçirmək məqsədilə icra olunacaq iş üçün sərf olunan vaxtı hesablamaq lazımdır

D) Normalar istehsalın bütün imkanlarını və qabaqcıl təcrübəni, mütərəqqi iş üsullarını özündə əks etdir

E) Əmək normaları vaxt sərfinin ölçüsünü xarakterizə edir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "İstehsalın təşkili" fənni üzrə mühazirə mətnləri. Bakı, 2017

187. Göstərilənlərdən hansı əmək normalarının iqtisadi cəhətdən əsaslandırılması zaman nəzərə alınan faktorlardan biridir?

A) Vaxt sərfinin dəqiq ölçülməsi

B) Avadanlığın texniki parametrlərindən istifadə olunması

C) İşçilərin ixtisasının yüksəldilməsi

D) Əmək prosesinin ahəngləşdirilməsi

E) İşçinin yaradıcılıq imkanlarının gözlənilməsini

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "İstehsalın təşkili" fənni üzrə mühazirə mətnləri. Bakı, 2017

188. Aşağıdakılardan hansı əməyin normalaşdırılmasının iqtisadi əsaslandırılmasını təşkil edən faktorlardan biri deyil?

